DÜNYA

# Ukraynanın keçmiş müdafiə naziri seçkilərin vacibliyindən danışıb

indicə




Mixaylo Fedorov

Ukraynanın keçmiş müdafiə naziri **Mixaylo Fedorov** videomüraciət yayıb. O bildirib ki, ölkə hətta uzunmüddətli müharibə şəraitində belə seçkilərin bərpası üçün “qanuni, təhlükəsiz və real mexanizm” tapmalıdır:

**“Müharibə daha bir, iki, üç il davam etsə, Rusiya faktiki ukraynalıların öz hakimiyyətini yenidən nə vaxt seçə biləcəyini müəyyənləşdirmək hüququ əldə edə bilərmi? Əminəm ki, yox. Demokratiya Rusiyanın girovuna çevrilə bilməz. Hətta uzunmüddətli müharibə dövründə belə Ukraynaya tam demokratik prosesi bərpa etməyə imkan verəcək qanuni, təhlükəsiz və real mexanizm tapmalıyıq”,** – Fedorov söyləyib.

Bu bəyanatdan az əvvəl Ukrayna prezidenti **Volodimir Zelenski Yevgeni Xmara**nın müdafiə naziri təyin olunması ilə bağlı Ali Radaya təqdimat göndərib.

Keçmiş müdafiə naziri deyib ki, hərbçilərin, xaricdə yaşayan milyonlarla ukraynalının və cəbhəyanı bölgələrdə yaşayan insanların səsvermə hüququ təmin olunmalıdır.

Onun sözlərinə görə, müharibə dövründə korrupsiya təkcə maliyyə problemi deyil, həm də “sağ qalmaq və qalib gəlmək qabiliyyətidir”. Fedorov Ukraynada idarəetmə sisteminin böhran içində olduğunu bildirib.

35 yaşlı Fedorov iyulun 15-də istefa verib. O, Ukrayna Müdafiə Nazirliyinə 2026-cı ilin əvvəlindən rəhbərlik edirdi. Vəzifədən azad edilən Fedorov həmin vaxt hələ Ukrayna Silahlı Qüvvələrinin baş komandanı olan A**leksandr Sırski**ni sərt tənqid edib. Fedorovla Sırski hərbi strategiyaya, xüsusilə dronlardan daha geniş istifadəyə fərqli yanaşırdı deyə aralarında münaqişə olub. Keçmiş müdafiə nazirinin sözlərinə görə, məhz Sırski onun istefaya getməsini istəyib.

Fedorov vəzifəsindən azad edildikdən sonra iyulun ortalarında ölkədə kütləvi etirazlar dalğası baş verib.

Ukraynada hərbi vəziyyət haqqında qanun səsverməyə keçirməyə imkan vermir. Hərbi vəziyyət dövründə prezident, parlament və yerli seçkilərin keçirilməsi qadağandır. Ölkədə sonuncu dəfə 2019-cu ildə ümummilli seçkilər keçirilib.

Fedorovun açıqlamaları cəmiyyətdə ciddi dəstəyə malik Zelenskiyə təzyiqi artıra bilər. Ancaq son vaxtlar prezident korrupsiya qalmaqalları və kadr qərarları ilə bağlı suallarla üzləşib.

## Buna da bax:

Keçmiş nazir Fedorov yalnız bir vəzifəyə razıdır – Müdafiə Nazirliyinə

Ukraynanın 'Patriot' çıxmazı

Rusiya və Ukrayna müharibədən necə çıxacaq

Rusiyada müharibədə ölənlərin məzar fotolarına görə təqiblər güclənir

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur